# Yurdun oğulları var

Müharibə itkisiz ötüşmür. Şiddətli döyüşlər zamanı bizim əsgərlərimizdən də şəhid olanlar var. Onların sırasında Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun yolunu davam etdirən həmyerliləri də az deyil: Fərahim Nadir oğlu Novruzov belələrindən biridir. 1996-cı ildə Biləsuvar rayonunun Səmədabad kəndində doğulub. Orta təhsilini başa vurduqdan sonra 2014-cü il oktyabrın 10-da hərbi xidmətə yollanıb. Evə qayıtmasına bir neçə gün qalmış baş verən döyüşlər zamanı Füzuli bölgəsində şəhid olub.

Bu xəbəri eşidən kimi Biləsuvar Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin, idarə, müəssisə, təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri Səmədabad kəndinə, şəhid Fərahim Novruzovun atası Nadir kişinin evinə gəldilər. Həyətə toplaşan insanların üz-gözündə kədərlə bərabər, məğrurluq vardı. Cənazənin cəbhə bölgəsindən gəlməsini gözləyən insanlar ordumuzun, əsgərlərimizin göstərdikləri igidlikdən, erməni hərbçilərinin burunlarını necə ovmalarından qürurla söhbət açırdılar.

Şəhid Əli Almasovun adını daşıyan Səmədabad kənd tam orta məktəbin müəllimi, Fərahimin sinif rəhbəri olmuş Allahverdi Mehdiyev şəhidlik zirvəsinə yüksələn şagirdinin çevikliyindən, nizam-intizamından, idmanı çox sevdiyini, qonşusu, Səmədabad kənd tam orta məktəbin 11-ci sinif şagirdi Sənan Babazadə onunla dostluq etdiyindən, asudə vaxtlarını birgə keçirdiyi günlərindən danışdı.



Günəş yavaş-yavaş qüruba enəndə xəbər gəldi ki, şəhidin cənazəsi artıq kənd ərazisinə daxil olub. Sonra tabut maşından düşürdülərək əsgərlərin çiyinlərində dədə-baba ocağına gətirilib həyətdə düzəldilmiş xüsusi kürsü üstünə qoyuldu. Vida mərasimindən sonra Azərbaycan bayrağına bürünmüş cənazə böyük bir izdihamın müşayiəti ilə kənd qəbiristanlığına aparıldı. Cənazənin arxasınca gedən gənclər əllərində tutduqları üçrəngli dövlət bayrağımızı başları üstündə dalğalandırırdılar. Onlar bir səslə “Hər şey bölünər, Vətən bölünməz!” şuarı ilə mətin addımlarla cənazənin ardınca irəliləyirdilər. Şəhid Quran sədaları altında torpağa tapşırıldı. Əsgərlərin yaylım atəşi ilə şəhidin ruhu bir daha yad edildi.

***Seyran CAVADOV,***
***“Azərbaycan”***